

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 138 (23.550)

22 avqust 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də 1000 meqavat yükötürmə gücü olan 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyasının tikintisi ilə tanış olub.

Dövlətimizin başçısı, həmçinin 385 meqavatlıq “Qobu” Elektrik Stansiyasının təməlini qoyub.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev ölkə başçısına məlumat verib ki, 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyasının inşası uğurla gedir. Hasil olunan elektrik enerjisinin enerjisistemə ötürülməsi, Bakının və Abşeron yarımadasının elektrik enerjisi təchizatında 500/330/220 kilovoltluq “Abşeron” yarımstansiyasından asılılığın aradan qaldırılması, istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatının təmin edilməsi, respublika ərazisində 330 kilovoltluq dairəvi elektrik təchizat sxeminin yaradılması üçün bu yarımstansiya müstəsna rola malikdir. “Qobu” yarımstansiyasının xüsusi özəlliyi ondan ibarətdir ki, bu, Bakıda tikilən ilk 330 kilovoltluq yarımstansiya olacaq və ən əsası, ölkənin ən strateji yarımstansiyası olan 500 kilovoltuq “Abşeron” yarımstansiyasının əvəzedicisi funksiyasını daşıyacaq. “Qobu” yarımstansiyasının enerjisistemə inteqrasiyasının 2 mərhələdə həyata keçirilməsi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev energetiklərlə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.



# Muxtar respublikadakı güclü sosial rifahın, iqtisadi inkişaf və mədəni tərəqqinin başlıca amili – ictimai-siyasi sabitlik

## Mürəkkəb tarixi dövrdən müasir təhlükəsiz diyara

***Naxçıvan Muxtar Respublikasında çoxşaxəli dinamik inkişafa nail olunması, uğurlu sosial-iqtisadi islahatların həyata keçirilməsi, mühüm Dövlət proqramlarının reallaşdırılması doğma yurdumuzu, nəinki ölkəmizin regionları arasında liderlik səviyyəsinə yüksəldib, həm də onu beynəlxalq sferada yüksək tərəqqi tempinə malik, çiçəklənən bir diyar kimi tanıdıb.***

Ümummilli lider Heydər Əliyev siyasətinin muxtar respublikamızda əzmkarlıq və sədaqətlə, yaradıcı şəkildə davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan dünyada elm, təhsil, iqtisadi-mədəni əməkdaşlıq baxımından ən etibarlı tərəfdaş hesab edilən bir diyara çevrilib. İftixarla deməkolar ki, bu gün muxtar respublika 10-dan çox ölkəyə 10 adda, 120-dən çox çeşiddə məhsul ixrac edir, bir çox beynəlxalq layihənin iştirakçısıdır. Bu gün Naxçıvan Dövlət Universiteti 50-yə yaxın dünya universiteti ilə beynəlxalq əlaqələrə malikdir və heç də təsadüfi deyildir ki, dünyanın 9 ölkəsindən 787 əcnəbi tələbə təhsil almaq üçün məhz bu ali təhsil ocağına üstünlük verib. Ötən il ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 415 min 932 turist səyahət üçün məhz Naxçıvanı seçib. Cari ilin ötən dövrü ərzində muxtar respublika ərazisinə 40 minə yaxın miqrant daxil olub. Bütün bu uğurların əsasında isə, heç şübhəsiz ki, ictimai-siyasi sabitliyin bərqərar olunması, asayişin qorunması dayanır.

Müstəqilliyin əldə edildiyi ilk illərdə bir tərəfdən mənfur erməni qəsbkarlarının davamlı işğalçı hücumları ilə müharibə yuvasına çevrilməsi, digər tərəfdən isə ölkədə hakimiyyət uğrunda gedən daxili çəkişmələr, başabəla ölkə rəhbərlərinin yarıtmaz fəaliyyəti və biganə münasibətilə “təklənmiş ada”ya çevrilən diyarımız, nəinki turistlər, xarici iş adamları, öz həmvətənlərimiz üçün belə, arzuolunmaz məkana çevrilmişdi. Heç də təsadüfi deyil ki, 1990-cı il iyul ayının 22-də ümummilli liderimiz Heydər Əliyevi Naxçıvanda qarşılayan 100 minlik izdiham, 1991-ci il sentyabrın 3-də isə ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsini israrla tələb edən çoxsaylı əhali görkəmli dövlət xadiminin ətrafında sıx birləşməklə bütün maddi çətinliklərin, iqtisadi böhranın fövqündə Naxçıvanın müdafiəsi və burada ictimai-siyasi sabitliyin, asayişin bərqərar olunması arzusunu ifadə etmişdi.

Təxminən, 30 ilə yaxın bir dövrdə muxtar respublikada dinamik sosial-iqtisadi tərəqqi, əhalinin sosial rifah halının gücləndirilməsi, sahibkarlığın inkişafına yaradılan şərait, yeni iş yerlərinin açılması, özünüməşğulluq problemlərinin ortadan qaldırılması nəticəsində ictimai-siyasi sabitlik də bərqərar olub. Muxtar respublikada aparılan məqsədyönlü dövlət siyasətinin əsasında isə o dururdu ki, sabitlik təmin olunmadan, asayiş qorunmadan davamlı inkişafdan danışmaq mümkün deyil. Bu gün Naxçıvan artıq ən təhlükəsiz, əmin-amanlıq dolu bir diyar kimi dünyanın diqqət mərkəzindədir. Müxtəlif dövlətlərin ölkəmizdəki diplomatik nümayəndələrinin rəsmi səfərlərinə məhz buradan başlaması, Avropanın məşhur iş adamlarının, mədəniyyət xadimlərinin, turistlərin məmnuniyyətlə buranı seçməsi, muxtar respublikanın Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşü, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes-Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü Toplantısı, Türk Şurası Gənc Liderlərinin ilk forumu, ənənəvi Beynəlxalq Şahmat Festivalı kimi mühüm dünya əhəmiyyətli tədbirlərə layiqincə ev sahibliyi edə bilməsi, Naxçıvan şəhərinin 2018-ci il üçün “İslam Mədəniyyətinin Paytaxtı” adını bütün dini və mənəvi dəyərlərə ehtiram, yüksək təşkilatçılıq baxımından doğrultması iftixar və qürurvericidir. Uzun illər ərzində yürüdülən düşünülmüş siyasət, həmrəyliklə aparılan mübarizələr nəticəsində dayanıqlı xarakter almış ictimai-siyasi sabitlikdə, ictimai təhlükəsizliyin təmin edilməsində hüquq-mühafizə, xüsusilə də daxili işlər orqanlarının fəaliyyətlərinin mühüm rolu vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Hər bir müstəqil ölkənin mövcudluğunun mühüm şərtlərindən biri də ictimai-siyasi sabitlik və bunun təminatçısı olan polis orqanlarıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, “Müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onların biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi, polis orqanlarıdır”. Dahi şəxsiyyət bu zərurəti əsas götürərək ölkəmizə birinci rəhbərliyi dövründə Daxili İşlər Nazirliyi sistemində çalışanların vətənpərvərlik ruhunda təlim-tərbiyəsinə və peşəkarlığının artırılmasına xüsusi diqqət yetirmiş, ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə daxili işlər orqanlarının fəaliyyətində əsaslı dönüş yaradılmış, onun sıraları dövlətinə və xalqına sədaqətli şəxsi heyətlə komplektləşdirilmişdir”.***



### *İnsan amili və qanunun aliliyi başlıca meyar olanda*

Ali Məclis Sədrinin cinayətkarlığa qarşı mübarizə sahəsində insan amilinə üstünlük verərək profilaktik və hüquqi maarifləndirmə tədbirlərinin daha effektli və əsaslı həyata keçirilməsi ilə bağlı tövsiyə və tapşırıqlarına ciddi riayət edilməsi nəticəsində daxili işlər orqanlarının fəaliyyətində uğurlar əldə edilməkdədir ki, bu da yüksək etimad və nüfuzun qazanılmasına səbəb olub. Muxtar respublika rəhbərinin tövsiyə və tapşırıqları əsasında uğurla həyata keçirilən islahatlar və struktur dəyişiklikləri, əməliyyat şəraitinin yenidən qurulması və mövcud olan çatışmazlıqların aradan qaldırılması, muxtar respublikada kriminogen vəziyyətə təsir edən amillərin müəyyənləşdirilərək qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Nəticədə, Daxili İşlər Nazirliyi və prokurorluq tərəfindən qeydə alınmış cinayət hadisələrinin açılması, cinayətlərin törədilməsində təqsirli bilinərək axtarışı elan olunmuş şəxslərin tutulması, eləcə də cinayət işləri üzrə dəymiş maddi ziyanın ödənilməsi 100 faiz təmin edilib, insan alverinə qarşı mübarizə sahəsində heç bir cinayət faktı qeydə alınmayıb. Muxtar respublikada ictimai qayda və təhlükəsizliyin yüksək səviyyədə təmin olunmasının nəticəsidir ki, cari ilin 6 ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə cinayətlərin sayı 2 vahid azalıb, ağır və xüsusilə ağır cinayət qeydə alınmayıb. Qanunsuz saxlanılan silahların yığılması istiqamətində ardıcıl həyata keçirilən profilaktik maarifləndirmə tədbirləri nəticəsində vətəndaşlardan 117 ədəd müxtəlif növ silah və sursat təhvil götürülüb. 2020-ci ilin I yarımilində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı ötən illə müqayisədə 7 inzibati fakt artıq aşkar edilib. Bəhs olunan dövrdə müstəntiqlərin icraatında olan, keçmiş illərdən qapalı qalmış cinayət işlərinin açılması sahəsində müsbət nəticələr əldə olunaraq 6 cinayət işinə xitam verilib. Təxminən, 30 il bundan əvvəl ayrı-ayrı qruplaşmalar, baş alıb gedən oğurluq və cinayət hadisələri üzündən hava qaralanda bayıra çıxa bilmədiyimiz bir diyarda artıq şəxsi avtomobil saxlancları tarixə düşüb, ən ucqar kəndlərdə belə, toyuq-cücə, mal-qara dolu həyət-bacanın qapısı tam əmin-amanlıqla axşamadək açıq saxlanılır. Vaxtilə böyük Nizaminin əsərlərində təsvir etdiyi ideal cəmiyyət nümunəsi bu gün, sözün əsl mənasında, özünü Naxçıvanda doğrultmaqdadır.

Bu sahədə aparılan dövlət siyasətinin əsas istiqamətlərindən biri məhz cinayətlərin qarşısının vaxtında alınması, onları doğuran səbəblərin öyrənilib aradan qaldırılması məqsədilə polisin əhali ilə sıx təmasda olması və cəmiyyətin fəal təbəqəsi ilə birgə insanlara yardım göstərməsi, məqsədyönlü və sistemli şəkildə maarifləndirmə tədbirləri keçirməsi kimi effektli profilaktik üsullardan istifadəyə üstünlük verməsidir. Ailə münasibətlərinin qorunması, ailə münaqişəsi zəminində baş verə biləcək cinayətlərin qarşısının vaxtında alınması, profilaktikasının təmin edilməsi məqsədilə həmin ailələrin yaxın qohumlarının, münaqişəyə müsbət təsiretmə gücünə malik digər nüfuzlu şəxslərin cəlb olunması hüquq-mühafizə strukturlarında milli mentalitetimizə əsaslanan uğurlu prinsiplərdir.

Muxtar respublikamızı fərqləndirən cəhətlərdən biri də bu gün yol hərəkəti təhlükəsizliyinin unikal şəkildə gözlənilməsidir. Azərbaycanın digər ərazilərində, hətta bir çox inkişaf etmiş Avropa ölkələrində belə, avtoxuliqanlıq nəticəsində hər gün kütləvi şəkildə yol-nəqliyyat hadisələri, çoxsaylı ölümlə nəticələnən qəzalar haqqında tez-tez məlumat alırıq. Diyarımızda isə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi tam nəzarətdə saxlanılır. Muxtar respublika paytaxtındakı “Təhlükəsiz şəhər” sistemi çərçivəsində quraşdırılan yeni təhlükəsizlik kameraları, Şərur, Ordubad və Culfa rayon mərkəzlərindəki müşahidə kameraları istər-istəməz inzibati məsuliyyət hissimizi artırmaqla, yol hərəkəti qaydalarına ciddi əməl etməklə baş verəcək faciəvi yol qəzalarından həyatımızı sığortalayır. Bu sahədə də inzibati cəza tədbirləri görülməsinə daha geniş yer verilir. Belə ki, əhali ilə maarifləndirici söhbətlər aparılır, orta məktəblərdə “Yol hərəkəti qaydaları və mən” adlı televiktorina, bir qrup gəncin təşəbbüsünə əsasən isə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun Daxili İşlər Nazirliyi ilə birgə “Diqqət, piyada!” devizi altında aksiya keçirilib, “Yol hərəkəti təhlükəsizliyinə dair piyadalar üçün buklet”lər paylanılıb. Eyni zamanda təbliğat məqsədilə səsli mətnlər hazırlanaraq elektron kartlara köçürülüb, gündəlik marşrutlarda həmin səs yazıları anons edilir. Nəticədə, cari ilin 6 ayında yol qəzalarının sayında 2019-cu illə müqayisədə 16,7 faiz azalma müşahidə olunub. Bu, eyni zamanda yerli əhalidə qanunun aliliyinə riayət mədəniyyətinin daha da inkişafına, hüquq-mühafizə sistemi əməkdaşları ilə vətəndaş həmrəyliyi nümayiş etdirilməsinə əsl nümunədir.

Ardı 2-ci səhifədə

Ölkəmizin digər bölgələrində yaşayan muxtar respublika sakinlərinin biometrik şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi və ya digər səyyar xidmətlər göstərilməsi məqsədilə Daxili İşlər Nazirliyi əməkdaşlarının Bakı şəhərinə ezam olunaraq Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyində müvəqqəti fəaliyyət göstərmələri isə muxtar respublikada insan amilinin hər şeydən üstün tutulmasına, vətəndaş məmnunluğunun təmin edilməsinə bariz nümunədir. Çoxumuzun yararlandığı bu təşəbbüs əhali tərəfindən böyük razılıqla qarşılanır.



### Ənənələrə varislik, nəsillərarası əlaqə – xidməti məsuliyyət, dövlətçiliyə sədaqət və vətənpərvərlik ruhunda yetişən gənclik

Yetmişillik "cinayətkar yaxalayan", "ədalət simvolu" olan sovet milis sistemindən xilas olduqdan sonra – müstəqilliyin ilk illərindən Naxçıvanda xalqına, dövlətinə, Vətəninə sadiq, qanunpərəst hüquq-mühafizə sistemi əməkdaşları yetişdirilməsinə başlanıldı. 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasında Müdafiə Komitəsi yaradıldı, polislərimiz də həmin komitə ilə, vətəndaşlarımızla çiyin-çiyinə torpaqlarımızın qorunması uğrunda cəsurluqla mübarizə apardılar. Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə igidlik, şücaət və əsl qəhrəmanlıq göstərən 16 polis əməkdaşı şəhid oldu, 76 polis işçisi yaralandı. Muxtar respublikada həyata keçirilən məqsədyönlü humanizm və düzgün idarəetmə prinsiplərinin davamı olaraq daxili işlər orqanlarında da mövcud müsbət ənənələr yaşadılır və təbliğ olunur. Polis veteranları ilə işin təşkili istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi və onların fəaliyyətlərinin hüquqi-təşkilati əsaslarının müəyyən edilməsi məqsədilə 2018-ci ilin oktyabr ayında nazirliyin Veteranlar Şurası yaradılıb. Bu ictimai qurumun təşkilində məqsəd veteranların timsalında şəxsi heyətə vətənpərvərlik, dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət ruhunun aşılanması, əməkdaşların peşəkarlığının artırılması, cinayətlərin üstünün açılması istiqamətində veteran polislərin təcrübəsindən istifadə olunması, onların hüquqlarının qorunması və sosial müdafiəsidir. Bu, ümumilikdə, veteranlara dövlət qayğısı, həssas münasibətin təzahürü olmaqla, gənclərin vətənpərvər, milli dövlətçiliyə sədaqət ruhunda formalaşması, onların zərərli vərdişlərə, radikal dini cərəyanlara qoşulmasının qarşısının alınması kimi bir mühüm mərama da xidmət edir.

Xüsusi xidmət orqanlarının qarşısına qoyulan vəzifələrin uğurla yerinə yetirilməsini şərtlərindən amillərdən biri də ixtisaslı kadrların hazırlanmasıdır. Vaxtilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi sistemində xüsusi təhsili olmayan şəxslərin xidmətə qəbul edilməsi sonrakı mərhələdə ciddi çətinliklər yaradırdı. Belə əməkdaşlar üçün təşkil edilən əlavə ixtisasartırma kursları da gözlənilən nəticələri vermir, səriştəli polis əməkdaşlarının yetişdirilməsi uzun zaman tələb edirdi. Bu ixtisası seçən gənclərimizin əksəriyyəti xüsusi təhsil almaq üçün muxtar respublikadan kənara çıxmaq məcburiyyətində qalırdı ki, bu da müəyyən sosial qayğılar, əlavə vaxt itkisi, maliyyə vəsaiti xərclənməsi demək idi. Yaranan maddi və mənəvi çətinliklər üzündən çoxları bu arzunu ürəyində boğmalı olurdu.

Muxtar respublikada daxili işlər orqanlarının fəaliyyətinə müntəzəm dövlət qayğısının bir bəhrəsi də müasir tədris bazasının yaradılmasıdır. Uğurlu kadr siyasətinin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kadr potensialının təkmilləşdirilməsi və müasir dövrün tələblərinə cavab verən gənc əməkdaşların hazırlanması zərurəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılıb, 2019-cu ilin oktyabr ayında istifadəyə verilib. Bu təhsil müəssisəsi Daxili İşlər Nazirliyi sisteminin peşəkar kadrlarla zənginləşdirilməsi ilə yanaşı, muxtar respublikanın təhlükəsizliyi, gənclərdə dövlətçiliyə xidmət əzminin formalaşması, vətənpərvərlik hisslərinin gücləndirilməsi baxımından da mühüm tarixi əhəmiyyətə malikdir. Ötən dövrdə məktəbə qəbul üçün 150-dən çox müraciət olmuşdur ki, bu ixtisasa maraq və tələbatın göstəricisi olmaqla yanaşı, həm də hüquq-mühafizə sistemi işçilərinə rəğbətin artması deməkdir. Burada gələcəyin polislərinə nəzəri və praktik biliklər, qanunvericilik bazası öyrədilir, eyni zamanda məsuliyyətlilik, mətinlik, iradəlilik və peşəkarlıq, ümumi dünyagörüşü, müasir təfəkkür tərzi aşılanır.

### Biz birlikdə güclüyük!

Son aylar, bütövlükdə, bəşəri problemə çevrilən, çoxsaylı insan ölümü, iqtisadi tənəzzül, ölkələr və xalqlararası əlaqələrə mənfi təsirlə nəticələnən pandemiyanın ağır dünyəvi fəsadlarını hər birimiz acı təəssüf hissi ilə izləyirik. Pandemiyanın Naxçıvan Muxtar Respublikası ərazisində yayılmasının qarşısının alınması və təsirinin azaldılması istiqamətində görülən qabaqlayıcı tədbirlər, düşünülmüş idarəetmə diyarımızda yoluxma hallarının minimum həddə qeydə alınması ilə nəticələnib. Yəqin ki, hamılıqla təsdiqləyərik ki, bu uğurda Daxili İşlər Nazirliyi əməkdaşlarının da fədakar əməyi danılmazdır. Gücləndirilmiş iş rejimində çalışan daxili işlər orqanları əməkdaşları muxtar respublikaya girişlərin ciddi nəzarətə götürülməsindən tutmuş xüsusi karantin rejiminə ciddi əməl edilməsinə, zəruri ehtiyac yarandıqda vətəndaşların səhiyyə ocaqlarına çatdırılmasına qədər fəal köməklik göstəriblər. Bu müddət ərzində, ümumilikdə, 7450 nəfər vətəndaşımız karantin nəzarətində saxlanılıb. Onlar içərisində Türkiyə Respublikasından gələn və ölkəmizin digər regionlarından olan 160 nəfər vətəndaşımız Duzdağ Fizioterapiya Mərkəzində, 417 nəfər isə Şərur rayonunda yerləşən karantin mərkəzində ciddi rejimdə saxlanılıb, karantin müddəti başa çatdıqdan sonra isə çarter reyslər vasitəsilə Bakı şəhərinə yola salınıb. Yoluxan və onlarla əlaqəsi olmuş muxtar respublika sakinləri, o cümlədən Türkiyə Respublikasından və Bakı şəhərindən qayıdan 6873 nəfər vətəndaşımız isə 2749 ünvan üzrə 21 gün ev şəraitində karantin nəzarətində saxlanıldıqdan sonra tibbi müayinədən keçirilib və sağlamlıqlarına dair müsbət rəy verildikdən sonra karantin nəzarətindən çıxarılıb. Bunlar hər birimizin ətrafda müşahidə etdiyimiz reallıqlardır. Hansısa doğmamızın, tanıdıqlarımızın ailəsinə karantin müddətində bayırda keşik çəkən, lazım gəldikdə ərzaq, iynə-dərman və digər zəruri vasitələrin alınmasına kömək edən, evə qapanmaq məcburiyyətində qalan tənha ahıllarımıza, sağlamlıq imkanları məhdud insanlara sosial qayğı, mənəvi dəstək olan polislərimiz çətin sınaq günlərimizdə yaxın dostumuza çevrilib. Şəhərdaxili və rayonlararası fəaliyyət göstərən ictimai nəqliyyat vasitələrinin və taksilərin hərəkətinə tətbiq edilən məhdudiyyətlərin gözlənilməsinə, karantin rejimi ilə əlaqədar fəaliyyətləri müvəqqəti dayandırılan, eləcə də müəyyən vaxt məhdudiyyəti tətbiq olunan ticarət və ictimai iaşə obyektlərinin karantin qaydalarına riayət etmələrinə polislərimiz tərəfindən ciddi nəzarət edilməsinin hər birimiz şahidi olmuşuq. Mövcud vəziyyətlə bağlı psixoloji sarsıntı keçirib emosiyalarımızı cilovlaya bilməyəndə polis əməkdaşlarının cəzalandırmaqla deyil, inzibati tənbeh, profilaktik tədbirlərlə kifayətləndiyini görüb, biz də vətəndaş kimi toxtayıb, bütün bunların muxtar respublikada insan amilinə verilən dəyər, sağlamlığımıza qayğı olduğunu dərk etmişik. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikamızda pandemiya ilə bağlı vəziyyətin tam nəzarət altında saxlandığını, virusa yoluxma hallarının minimum səviyyədə qeydə alındığını görəndə açıqca qürrələnmişik. Polis orqanlarında çalışanlarımız insanların sağlamlığı naminə fədakar fəaliyyətləri ilə əsl dövlətçiliyə sədaqət, vətəndaşa həssas münasibət və qayğı nümayiş etdiriblər. Təsadüfi deyil ki, daxili işlər orqanlarının pandemiya ilə əlaqədar həyata keçirilən təhlükəsizlik tədbirlərində fəal iştirakı muxtar respublika rəhbəri tərəfindən yüksək qiymətləndirilib və ötən dövr ərzində 982 nəfər polis əməkdaşı, o cümlədən Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının 223 nəfər şəxsi heyəti birdəfəlik pul mükafatı ilə mükafatlandırılıb.

*Bütün bunlar son illər muxtar respublikada sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasını təmin etmək istiqamətində aparılan uğurlu siyasətin bəhrələridir. Muxtar respublikada hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının, əməkdaşlarının isə sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər, yaradılan şərait bu sahədə çalışanların fəaliyyətinə böyük stimul verir. İnamla deyə bilərik ki, Naxçıvan polisi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilən bu siyasəti əldə rəhbər tutaraq insan hüquq və azadlıqlarının beynəlxalq konvensiyalar çərçivəsində müdafiə olunmasının təmini, cinayətkarlıqla mübarizədə peşəkar tədbirlərin həyata keçirilməsi vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcək, öz göstəricilərinə görə Azərbaycan Respublikası daxili işlər orqanları arasında öncül mövqeyini qoruyub saxlayacaqdır. Biz naxçıvanlılar da doğma diyarımızın cinayətsiz region statusunun bundan sonra da qorunması kimi ülvi bir məramın gerçəkləşməsində onlara dəstək olacaq, əsl vətəndaş həmrəyliyi nümayiş etdirəcəyik.* ***Biz birlikdə güclüyük!..***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Vətən sərhəddən başlayır



*Azərbaycan Respublikası Sərhəd Qoşunlarının formalaşmasında ümummilli liderimizin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda ilk milli sərhəd qurumları yaradılmışdır.*

Bu gün qədim diyarımızın sərhədlərini sayıqlıqla qoruyan "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaradılmasından 28 il ötür. Xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən cəmi dörd gün sonra 1991-ci il sentyabrın 7-də Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etmişdir. Bununla da Azərbaycanda vahid komandanlığa tabe olan ilk milli ordunun əsası qoyulmuşdur. 1992-ci il avqustun 22-də Naxçıvanda sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdır. Bununla da muxtar respublikanın sərhəd xidməti həyata keçirilən 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli Sərhəd Qoşunları tərəfindən mühafizəyə qəbul edilmişdir. Ulu öndər Heydər Əliyev demişdir: ***"Müstəqil Azərbaycan Respublikası öz ərazisinin, sərhədlərinin sahibidir, müstəqil dövlət kimi öz sərhədlərini qorumalıdır və bunun üçün də sərhəd dəstələri, sərhəd qoşunları yaradılmışdır. İnanıram ki, Azərbaycanın Sərhəd Qoşunları bundan sonra öz fəaliyyətini gündən-günə həm genişləndirəcək, həm təkmilləşdirəcəkdir".***

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ali rəhbərliyə ikinci qayıdışından sonra da bu sahədə işlər davam etdirilmiş, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu nümayiş etdirmişdir. Bu gün isə ulu öndərin siyasi irsini uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğı nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir. ***"Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir. Müstəqillik sərhədsiz mümkün deyil"***, – deyən ölkə başçısı Dövlət Sərhəd Xidməti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, normativ-hüquqi baza təkmilləşdirilmiş, maddi-texniki təminat və döyüş hazırlığı artırılmışdır. Ali Baş Komandan cənab İlham Əliyevin 2004-cü il 14 yanvar tarixli Fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında Sərhəd Diviziyası, 2015-ci il 17 avqust tarixli Fərmanı ilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası yaradılmış, Naxçıvanda sərhədlərimizin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər yeni mərhələyə qədəm qoymuşdur.



Sərhəd Qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bu gün də muxtar respublikamızda uğurla davam etdirilir, hərbi qulluqçulara hərtərəfli dövlət qayğısı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikada sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilmiş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. Göstərilən diqqət və qayğı nəticəsində qərargah binası, xəstəxana, müasir tələblərə cavab verən uşaq bağçası tikilmiş, mərkəzləşmiş istilik sistemi yaradılmış, sərhədçi ailələri üçün istirahət parkı salınmış, hamam-camaşırxana kompleksi yenidən qurulmuş, çörək sexi istifadəyə verilmişdir. Həmçinin "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının ərazisində abadlıq işləri aparılmış, avtomobil parkında təmir emalatxanaları, anbarlar, avtomobillər üçün yeni saxlanclar, qarovul və qazanxana binaları inşa edilmişdir. Bundan əlavə, ötən dövrdə Şərur və Culfa sərhəd komendantlıqları, müasir tələblərə uyğun sərhəd zastavaları, zabit-gizir ailələri üçün yaşayış binaları tikilərək sərhədçilərin istifadəsinə verilmişdir. Hərbi infrastruktur quruculuğu istiqamətində görülən işlər 2020-ci ilin ötən dövründə də diqqət mərkəzində saxlanılmış, Şərur rayonunda 3-cü Sərhəd Zastavası üçün xidmət və yaşayış kompleksi istifadəyə verilmiş, eləcə də 8-ci Sərhəd Zastavası üçün infrastruktur obyektlərinin tikintisi başa çatdırılmışdır. Sərhəd zastavalarına çəkilən yollar üzərində 12 körpü yenidən tikilmişdir. Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması məqsədilə dövlət sərhədi boyunca siqnalizasiya sistemi yaradılmış və müasirtipli kameralar quraşdırılmışdır. "Dəmirçi" və "Nehrəm" Sərhəd zastavalarının bazasında yenidənqurma və kompleks tikinti işləri aparılmış, müasir tələblərə uyğun yeni qərargah binaları, əsgər yataqxanaları, anbarlar, hamam-camaşırxana, yardımçı binalar, sərhədçi ailələri üçün tam şəraitli yaşayış binaları tikilib istifadəyə verilmişdir. Nehrəm Təlim Mərkəzində və Culfa sərhəd komendantlığının Təlim Mərkəzində yenidənqurma və təkmilləşdirmə işləri aparılmışdır. Sərhəd Diviziyasında 560 yerlik əsgər yataqxanasında əsaslı təmir işləri davam etdirilir.

Şəxsi heyətin təminat və təchizatının yaxşılaşdırılması, sərhəd zastavalarının müasir texnika və avadanlıqlarla təmin edilməsi də daim diqqət mərkəzində saxlanılır. Yaradılan müasir infrastruktur və maddi-texniki təchizat döyüş hazırlığının yüksəldilməsinə və peşəkar kadr təminatına öz töhfəsini vermişdir. Naxçıvan Təlim Mərkəzində Türkiyə Respublikası və Naxçıvan Qarnizonunun birləşmə və hissələri ilə birgə keçirilən döyüş atışlı taktiki təlimlərinə Sərhəd Diviziyasından cəlb olunmuş heyət yüksək əzmkarlıq

*Ardı 3-cü səhifədə*

göstərmiş, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində döyüş bacarıqları və peşəkarlıqlarını nümayiş etdirmişlər. Sərhəd komendantlıqlarının xidməti ərazilərində qarşılıqlı fəaliyyət planına əsasən "Dövlət sərhədinin pozulması halları baş verdikdə sərhəd bölmələrinin hərəkəti və sərhəd axtarışının keçirilməsi" mövzusunda Sərhəd Diviziyasının sərhəd zastavalarının, sərhəd komendantlıqları və Çevik hərəkət taborunun şəxsi heyətinin iştirakı ilə təlim məşqləri keçirilmişdir. Təlimdə əldə olunan təcrübə, şəxsi heyətin qazandığı vərdişlər dövlət sərhədinin etibarlı mühafizəsinə təminat yaratmışdır. Müxtəlif ixtisaslar üzrə Mərkəzi Qərargahda keçirilən təlim toplanışlarında zabit heyətinin





hazırlanması və təkmilləşdirilməsində Sərhəd Diviziyasının aidiyyəti üzrə bölmələrinin iştirakı təmin olunmuşdur. Həmçinin Əlahiddə Sərhəd Diviziyasının ştat strukturunda dəyişiklik və əlavələr edilmiş, Araz Su Anbarında sərhədlərin etibarlı mühafizəsinin təmin edilməsi məqsədilə sahil mühafizə qrupu yaradılmışdır. Gizir hazırlığı və Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kurslarında Sərhəd Diviziyası üçün mütəxəssislərin hazırlanması və bu kurslarda hərbi qulluqçuların təhsil alması təşkil olunmuşdur.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında xidməti vəzifələrini layiqincə yerinə yetirən əsgər, çavuş, gizir və zabitlər həmişə yüksək dövlət mükafatlarına layiq görülürlər. Ötən dövrdə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 5 hərbi qulluqçusu yüksək dövlət mükafatına layiq görülmüş, 365 hərbi qulluqçu isə müxtəlif medallarla, eləcə də 4 zabit vaxtından əvvəl rütbə ilə təltif olunmuşdur.

Bu gün hər bir sərhədçi ulu öndərimizin və müstəqilliyimizin əmanəti olan dövlət sərhədlərimizi ayıq-sayıq qorumaqla, həm də beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, qaçaqmalçılığa qarşı mübarizə aparır, fədakarlıq göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir ölkənin müstəqilliyinin və dövlətçiliyinin ən mühüm şərtlərindən biri onun dövlət sərhədlərinin olmasıdır. Dövlət sərhədi olmayan və sərhədi qorunmayan ölkə müstəqil ola bilməz".***

**"Şərq qapısı"**

## Sərhədlərimizin etibarlı mühafizəsi hər bir sərhədçi üçün həyat amalıdır

*"Vətən sərhəddən başlanır", – deyirlər. Deməli, hər bir azərbaycanlı Vətənin sərhədini təşkil edir, onu qoruyur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədiyi bu fikirlər bir daha ölkə sərhədlərinin toxunulmazlığını sübut etməklə bərabər, onun etibarlı qorunmasını da qarşıya müqəddəs vəzifə olaraq qoyur:* ***"Müstəqil Azərbaycan Respublikası öz ərazisinin, sərhədlərinin sahibidir, müstəqil dövlət kimi öz sərhədlərini qorumalıdır və bunun üçün də sərhəd dəstələri, sərhəd qoşunları yaradılıb".*** *Sərhədçi peşəsi müqəddəs peşədir, – deyənlər heç də yanılmırlar. Ölkəmizin sərhədinin keşiyini çəkən hər bir əsgər diyarımızda əldə olunan bugünkü sabitliyin, əmin-amanlığın, inkişafın da qoruyucusudur.*

Budəfəki yazını hazırlamaq üçün də elə bu müqəddəs peşə sahibləri ilə həmsöhbət olduq, onlarla muxtar respublikamızın sərhədlərinin mühafizəsi ilə bağlı görülən işlərdən, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bugünkü inkişafından danışdıq.

"Bu gün Naxçıvan Muxtar Respublikasının sərhədləri əsgərlərimiz tərəfindən etibarlı şəkildə qorunur", – deyən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zabiti, mayor ***Tofiq Bayramov*** əslən Cəlilabad rayonundandır və 22 ildən artıq bir müddətdir, Naxçıvanda xidmət edir. Onun dediklərindən:



– Bu gün ümummilli liderimizin yolunu uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğı nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir. Dövlət sərhədlərimizin daha da etibarlı şəkildə qorunması, hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika, avadanlıq və ləvazimatlarla təminatı sahəsində də böyük işlər görülüb. Mən müstəqillik qazandığımız ilk illərdən başlayaraq Vətənimə xidmət etdiyim üçün sözügedən inkişafın qısa zaman kəsiyində əldə olunmasının şahidiyəm. Son illər həyata keçirilən ardıcıl tədbirlər nəticəsində hərbi hissənin maddi-texniki bazası xeyli möhkəmləndirilib, sərhəd zastavaları müasir texnika, avadanlıq və ləvazimatlarla təmin olunub, şəxsi heyətin peşəkarlığı artırılıb, yeni sərhəd infrastrukturu yaradılıb. Bütün bunlar isə sərhədlərimizin etibarlı şəkildə qorunmasına geniş imkanlar açır.

Müsahibim qeyd edir ki, bu gün hər bir sərhədçi dövlət qayğısını öz üzərində hiss edir. Qüsursuz xidmət edən zabitlər evlə təmin olunur, mütəmadi olaraq hərbi qulluqçuların vəzifə maaşları artırılır, xidmətdə fərqlənənlər orden və medallarla təltif olunur ki, bu da bütün sərhədçilərdə böyük ruh yüksəkliyi yaradır.

Söhbətimizə qoşulan "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zabiti, əslən Lənkəran rayonundan olan mayor ***İlkin Mahmudov*** isə qeyd edir ki, sərhədçi, hərbçi peşəsi müqəddəs və bir o qədər də məsuliyyətlidir. Bu səbəbdən də mən övladlarımı bu ruhda, vətənpərvər şəkildə yetişdirməyə çalışıram. Bunun nəticəsində böyük oğlum artıq mənim kimi hərbçi peşəsini seçib, hazırda Heydər Əliyev adına Hərbi Liseyin kursantıdır.



Mayor İlkin Mahmudov onu da söylədi ki, xidmətdə olduğu 20 ildən artıq müddətdə hərbi qulluqçuların məişət şəraitinin daim diqqət mərkəzində olduğunu görüb: – Bu gün "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında və onun zastavalarında yeni əsgər yataqxanalarının, tibb məntəqələrinin, təlim-tədris mərkəzlərinin, yeni yaşayış binalarının tikilməsi və məişət avadanlıqları ilə təchiz olunması buna bariz nümunədir. Mən və mənim kimi burada xidmət edən hərbi qulluqçular öz ailələrinin məişət şəraitindən, övladlarının təhsilindən, tibbi və sosial xidmətlərdən razılıq edirlər. Bu da bütün sərhədçilərin məsuliyyətini daha da artırır. Söz veririk ki, göstərilən diqqət və qayğını öz nümunəvi xidmətimizlə doğruldacağıq.

Diviziyanın zabiti, kapitan ***Ruslan Həsənov*** isə söyləyir ki, Vətənə layaqətlə xidmət edən əsgər və zabitlər daim diqqətdə saxlanılır. Bütün bunlar hər birimizdə qürur hissləri ilə bərabər, əminlik də yaradır. Biz burada gənc əsgərlərin də peşəkar sərhədçi kimi yetişməsi üçün xidmət aparırıq. Əsgərlərin hərtərəfli öyrədilməsi, onlara sərhədçi peşəsinin dərindən mənimsədilməsi bu gün qarşıda duran əsas vəzifələrdəndir. Zabitlərin hər bir əsgərə fərdi qayğısı, bilik və bacarıqlarını böyük maraqla gənclərə öyrətməsi onların yüksək hazırlıqlı və peşəkar sərhədçi kimi yetişməsində mühüm rol oynayır. Burada fiziki və psixoloji hazırlıq, asudə vaxtın səmərəli təşkili üçün lazımi infrastruktur yaradılıb. Bütün bunlar isə sərhədlərimizin etibarlı şəkildə qorunmasına imkan verir.



"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının gənc kadrlarından, Yardımlı rayonundan olan baş leytenant ***Vahid Əlicanlı*** isə bildirir ki, Vətənin hər yerində xidmət aparmaq müqəddəs bir vəzifədir. Ancaq şəxsən mən buraya ilk gəldiyim gündən etibarən sərhədlərin mühafizəsi sahəsində şahidi olduğum inkişafa görə xidmət yoluma Naxçıvandan başladığım üçün fəxr edirəm. Əvvəllər muxtar respublikaya səfər etməmişdim. Artıq 5 ildir ki, burada xidmətdəyəm. Naxçıvanda yaşadığım müddətdə bu diyardakı çoxşaxəli inkişafı qururla izləmişəm. Burada insanlar xoşbəxt, gülərüz, istiqanlı və mehribandırlar. Bizə göstərilən diqqət və qayğı göz önündədir. Gözəl, işıqlı, hər bir şəraiti olan otaqlarla təmin olunmuşuq. Bu bizim həm sevincimizi, həm də məsuliyyətimizi daha da artırır. Biz sərhədçilər üçün yaradılan şərait bir hərbi qulluqçu kimi məni də çox sevindirir.



*Bu gün Azərbaycan Ordusunun əldə etdiyi uğurların arxasında, heç şübhəsiz, onlara göstərilən diqqət və qayğı dayanır. Bu qayğının qarşılığında, əlbəttə, böyük etimad, eyni zamanda tələbkarlıq var. Məqsəd torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, ordumuzun günügündən gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılmasıdır. Apardığımız söhbətlərdən də məlum olur ki, hər bir sərhədçi öz peşəsinin məsuliyyətini dərindən dərk edərək Vətənimizin sərhədlərinin keşiyində ayıq-sayıq dayanır, səmada dalğalanan, müstəqillik rəmzimiz olan üçrəngli bayrağımızın və "Azərbaycan" adlı müqəddəsliyin daim var olması üçün çalışır. Sərhədlərimizin etibarlı mühafizəsi bu etimadı layiqincə doğrultmaq istəyən hər bir sərhədçi üçün həyat amalıdır.*

**Pərviz HACILI**

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib

*2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində müşavirə keçirilib.*



Tədbirdə nazir Tapdıq Əliyev məruzə edərək bildirib ki, bu gün muxtar respublikamızda ərzaq və qeyri-ərzaq məhsullarının saxlanılması üçün ümumi tutumu 31 min 140 ton olan anbar yaradılıb. Bunun tutumu 19 min 340 ton olanı soyuducu, tutumu 11 min 800 ton olanı ümumi təyinatlı anbarlardır. Payız-qış mövsümünə hazırlıqla əlaqədar meyvə-tərəvəz məhsullarının tədarük olunması məqsədilə soyuducu anbarların və istixana komplekslərinin sahibkarları arasında maarifləndirmə işləri aparılıb, istehsalçı və tədarükçü sahibkarların fəaliyyətinin əlaqələndirilməsi təmin edilib. Cari ilin ötən dövrü ərzində əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə tutumu 2900 ton olan 3 soyuducu anbarın yaradılması, bir soyuducu anbarın genişləndirilməsi başa çatdırılıb, ümumi tutumu 250 ton olan soyuducu anbarın yaradılması davam etdirilir.

15 iyul 2020-ci il tarixdən bu günədək muxtar respublika ərazisində fəaliyyət göstərən meyvə-tərəvəz məhsullarının saxlanması anbarlarına 6300 ton kartof məhsulu tədarük olunub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 2220 ton çoxdur. Vurğulanıb ki, son illər ərzində soyuducu anbarların qurulması və məhsul tədarükü məqsədilə Sahibkarlığın İnkişafı Fondundan sahibkarlara 4 milyon 448 min 840 manat, o cümlədən 2020-ci ilin ötən dövründə bu istiqamətdə sahibkarlara 66 min manat dövlət maliyyə dəstəyi göstərilib.

Diqqətə çatdırılıb ki, muxtar respublikada 138 min 139 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 30 istixana təsərrüfatı fəaliyyət göstərir. Cari ilin ötən dövrü ərzində həmin istixana komplekslərində istehlakçılara 546 ton tərəvəz məhsulları təklif olunub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 137 ton çoxdur. 2020-ci ilin ötən dövrü ərzində muxtar respublikada mövsümi tələbatın ödənilməsini yaxşılaşdırmaq məqsədilə ümumi sahəsi 5 min 815 kvadratmetr olan 8 istixana təsərrüfatının yaradılması, 696 kvadratmetr olan bir istixana təsərrüfatının fəaliyyətinin bərpası başa çatdırılıb. Son illər ərzində istixana komplekslərinin yaradılmasına Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli şərtlərlə 4 milyon 652 min 600 manat kredit verilib.

Vurğulanıb ki, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün bu günə qədər sahibkarlıq subyektlərinin anbarlarında strateji məhsullar qrupuna daxil olan 2430 ton şəkər tozu, qənd, unlu-qənnadı məmulatları, makaron, düyü, ət və ət məhsulları, toyuq əti, heyvan və bitki mənşəli yağlar, çay və duz məhsullarının ehtiyatı mövcuddur.

Sonra payız-qış mövsümünə hazırlıqla bağlı müşavirədə nazirliyin qarşısında qoyulmuş vəzifələrin icrası məqsədilə müvafiq tapşırıqlar verilib.

Sonda çıxışlar olub.

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində keçirilən müşavirəni nazir Rafael Əliyev açaraq bildirib ki, nazirlik tərəfindən dövlət büdcəsindən maliyyələşən nazirlik, komitə, idarə və təşkilatların 2020-ci ildə saxlanılması xərcləri smetasında kommunal xidmətlərin ödənilməsi və qış mövsümündə tələb olunan mal-materialın alınması üçün vəsait nəzərdə tutulub. Belə ki, 2020-ci il Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində elektrik enerjisi haqqının ödənilməsi üçün 10 milyon 469 min 818 manat, qaz haqqının ödənilməsi üçün 2 milyon 868 min 478 manat, istilik enerjisi haqqının ödənilməsi üçün 541 min 605 manat vəsait nəzərdə tutulub.



Qeyd edilib ki, ötən il payız-qış mövsümünə hazırlıqla bağlı müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş bölgüyə uyğun olaraq Təhsil Nazirliyi üçün alınmış mal-materialın dəyəri 6101, Mədəniyyət Nazirliyinə alınmış mal-materialın dəyəri 3997, Səhiyyə Nazirliyi üçün alınmış mal-materialın dəyəri isə 413 manat olmaqla, ümumilikdə, 10511 manat təşkil edib. Həmçinin istilik sistemi olmayan təhsil müəssisələri üçün verilmiş yanacağa görə 36139, mədəniyyət müəssisələri üçün 13090, səhiyyə müəssisələri üçün isə 9329 olmaqla, ümumilikdə, 58558 manat məbləğində vəsait Naxçıvan Muxtar Respublikası Neft-Qaz Məhsulları Təminatı Müəssisəsinə ödənilib.

Vurğulanıb ki, cari ilin payız-qış mövsümünə hazırlıqla bağlı müşavirədə verilmiş tapşırıqların icrası Maliyyə Nazirliyi tərəfindən diqqət mərkəzində saxlanılmaqla dövlət müəssisə və təşkilatlarında enerjidaşıyıcılardan səmərəli istifadə təmin ediləcək, bütün kommunal ödənişlərin vaxtında və tam ödənilməsi ilə borc qalığının yaranmasının qarşısı alınacaq və istilik sistemləri olmayan müəssisələrə lazım olan mal-materialın alınması ilə bağlı maliyyələşmələr vaxtında həyata keçiriləcəkdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş bölgüyə əsasən alınacaq mal-materialların qiymətlərinin bazar qiymətlərinə uyğunluğu Xəzinə şöbəsinin dövlət satınalmalarına nəzarət sektoru tərəfindən ciddi nəzarətdə saxlanılacaq, izafi xərclərin qarşısı alınacaqdır.

Sonra görüləcək işlərlə bağlı müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**

# Ərazi bütövlüyümüzün bərpa ediləcəyi gün uzaqda deyil

*Düz 27 il əvvəl – 1993-cü il avqustun 23-də erməni hərbi birləşmələri Füzuli şəhəri, Horadiz qəsəbəsi və rayonun 82 kəndini işğal edib, insanları doğma yurd-yuvasından didərgin salıblar. İşğal olunmuş yaşayış məntəqələri erməni quldurları tərəfindən talan edilib, dağıdılıb və yandırılıb. Müharibə zamanı rayon sakinlərindən 657-si şəhid olub, 181-i itkin düşüb, 1341-i sağlamlığını itirib. Torpaqlarımızın müdafiəsi uğrunda fədakarlıq göstərmiş füzulililərdən 6 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.*



Həmin vaxt Azərbaycan Respublikası Milli Məclisinin Sədri vəzifəsində işləyən dahi rəhbərin uzaqgörən siyasəti olmasaydı mənfur ermənilər və onlara havadarlıq edənlər daha çox ərazimizi zəbt edə bilərdi. Tanrı bu xalqın qədirbilən oğluna güc verdi. Xalqımızın onun ətrafında sıx birləşməyi torpaqlarımızın daha genişmiqyaslı işğalının qarşısını aldı. Torpaqlarımızın azad edilməsinə qismən nail olundu. 1994-cü ilin yanvarında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində rayonun 21 kəndi və Horadiz qəsəbəsi işğaldan azad edildi. Hazırda rayonun 1382 kvadratkilometr ərazisinin 682 kvadratkilometri işğal altındadır. Əhalisinin 67 min nəfəri işğaldan azad edilmiş ərazidə, 55 min nəfəri isə məcburi köçkün kimi Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Beyləqan, İmişli, Sabirabad, Saatlı və digər rayonlarda məskunlaşıb.

Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edən Füzuli rayonu təbii sərvətlərlə zəngin məkandır. Ərazidə ümumi ehtiyatları 58858 min kubmetr olan əhəngdaşı, 11211 min kubmetr gil, 13053 min kubmetr qum-çınqıl qarışığı yataqları var. Yaşı 200 ildən 1400 ilə qədər olan 11 Şərq çinarı işğala qədər təbiət abidəsi kimi mühafizə olunurdu. Füzuli rayonu tarixi, mədəniyyət və memarlıq abidələri – mağara və kurqanlar, çoxlu sayda türbə, qəbirüstü abidələr, at, qoç fiqurları, körpülərlə də zəngindir. Təəssüf ki, bu nadir abidələrin bir çoxu, eləcə də Azıx mağarası erməni vandalizminin qurbanına çevrilib.

1996-cı ildən etibarən rayonun işğaldan azad olunmuş ərazilərində infrastrukturun bərpasına başlanılıb. Son illərdə rayon ərazisində 16 qəsəbə salınıb, işğalçılar tərəfindən yandırılmış və dağıdılmış evlər, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, yollar, körpülər, elektrik və suvarma sistemləri bərpa olunub. Rayonda Müalicə Diaqnostika Mərkəzi, su elektrik stansiyası, 20-dən çox məktəb tikilib, Horadizdə işğal zamanı yandırılmış və dağıdılmış 6 küçə yenidən qurulub, 227 ev bərpa olunaraq sahiblərinin istifadəsinə verilib. Heydər Əliyev Mərkəzi, Heydər Parkı, Muğam Mərkəzi, Gənclər Mərkəzi, Olimpiya İdman Kompleksi, rayon İcra Hakimiyyəti, Polis və Təhsil şöbələri, Dövlət Təhlükəsizlik Xidmətinin rayon şöbəsi üçün inzibati bina, Bayraq Meydanı, müasir uşaq bağçası, tarix-diyarşünaslıq muzeyi, tikiş fabriki tikilib istifadəyə verilib, mədəniyyət sarayı, şahmat məktəbi, dəmir yolunun Horadiz stansiyası yenidən qurulub. Horadiz qəsəbəsinə şəhər statusu verilib. Bu gün düşmənlə yaxın məsafədə Horadiz şəhərində, kənd və qəsəbələrdə həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri rayonun simasını büsbütün dəyişib. İndi bu yerlərə yolu düşən hər kəs müasirliyin, gözəlliyin, təmizliyin və səliqə-sahmanın şahidi olur.

Həmin çətin günlərdə Şuşada, Laçında, Ağdamda olduğu kimi, cəbrayıllılar da köməyə ehtiyac duyurdular. Hərbi taktika, strategiya, vahid komanda altında birləşmə, irəliləmə yox idi. O çətin dözülməz günlərdə Cəbrayıl rayonunda kifayət qədər qüvvə yox idi. Amma buna baxmayaraq, sərhəddə ermənilərə qarşı müdafiə xətləri yaradılmışdı. Şaqay yüksəkliyi alınmış və orada mövqe tutulmuşdu. Yeddi ay həmin yüksəkliyin hesabına rayona nəzarət edildi. Rayonun işğalı həmin yüksəklik itirildikdən sonra başladı.

Onlarla tarixi abidənin məskəninə çevrilən bu rayonun ərazisi 105 min hektardır. İşğala qədər rayonda tikiş, xalça, cihazqayırma sexləri, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi. Cəbrayıl milli aşıq-ozan sənətimizin baniləri – Dirili Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərəmin, Aşıq Humayın vətənidir.



1993-cü il avqustun 23-də Cəbrayıl rayonunun erməni silahlı birləşmələri tərəfindən tutulması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb. Hazırda Cəbrayıl üzrə 351 nəfər şəhid ailəsi var, 61100 məcburi köçkün 58 rayonda, daha çox isə Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıb.

Zəngin yeraltı sərvətlərə və təbii gözəlliyə malik Cəbrayıl rayonunda mişardaşı istehsalına yararlı və istismara cəlb edilmiş ehtiyatları Tulus tuf, Çaxmaqçay, Soltanlı tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı Göyərçin-Veysəlli vulkan külü, Minbaşlı gəc, Ağtəpə əhəngdaşı, Cəfərabad qum-çınqıl qarışığı, Sahverdi yaşəm və Çaxmaqqaya xalsedon yataqları var.

Rayonda yaşı 200-1600 il olan 14 iri diametrli Şərq çinarı və digər qiymətli ağaclar, həmçinin Dağtumas kəndində "Divlər sarayı" adlanan mağara təbiət abidəsi kimi qorunurdu. Lakin işğaldan sonra respublika və rayon əhəmiyyətli 120-dək tarixi-memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib. 1994-cü il yanvarın 5-də 1993-cü ilin oktyabr ayında işğal edilmiş Cocuq Mərcanlı kəndi Horadiz əməliyyatı zamanı azad edilib. Amma bununla belə, kəndin ətrafındakı əsas yüksəkliklər erməni silahlı birləşmələrinin nəzarətində qaldığı üçün təhlükəsizlik nöqteyi-nəzərdən əhalini geri qaytarmaq mümkün olmayıb.

Ordumuzun şanlı qələbəsi Aprel zəfərində Lələtəpə yüksəkliyi başda olmaqla erməni ordusu həmin ərazilərdən tam qovulub və Cocuq Mərcanlı kəndi bütünlüklə Silahlı Qüvvələrimizin nəzarətindədir. Prezident cənab İlham Əliyevin sərəncamları ilə Cocuq Mərcanlıda birinci mərhələdə 50 evin, məktəb binasının, məscidin, elektrik yarımstansiyasının tikintisi həyata keçirilib, qaz, elektrik, rabitə, içməli su xətləri, uzunluğu 9 kilometr olan avtomobil yolu çəkilib. Kənddə tikinti işlərinin növbəti mərhələsində daha 100 ev, uşaq bağçası, tibb məntəqəsi, poçt, klub-icma mərkəzi üçün binalar və digər zəruri infrastruktur obyektləri, "Qayıdış" parkı inşa edilib. Dövlətimizin diqqət və qayğısı sayəsində Cocuq Mərcanlıda həyat öz axarı ilə davam edir. Sakinlər məcburi köçkünlük həyatına son qoyaraq doğma kəndlərində, abad ev-eşiklərində yeni həyata başlayıblar və inanırlar ki, gün gələcək bu gözəl mənzərələri Şuşada, Laçında, Xankəndidə də görəcəyik.

Bütün bunlar isə hazırda Azərbaycanın müxtəlif rayonlarında məskunlaşan Cəbrayıl və Füzuli camaatının öz ata-baba ocaqlarına, şəhidlərin narahat ruhları dolaşan o müqəddəs yerlərə qayıdacaqları gününün yaxında olacağından xəbər verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində dediyi: ***"Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*** kəlmələri bu inamı daha da artırır.

Yaxın günlərdə düşmənlərimizin cəbhə bölgəsindən deyil, dövlət sərhədi olan Tovuz rayonu istiqamətində təxribat törətməyi onların iç üzünü dünyaya göstərməklə yanaşı, çoxlu itki verib geri çəkilmələrinə də səbəb oldu. Və anladılar ki, qarşılarında 90-cı illərdəki müstəqilliyini yeni qazanmış, nizamlı ordusu olmayan Azərbaycan yoxdur. Artıq iqtisadiyyatı güclü, ordusu dünyanın ən güclü 50 ordusundan biri, xalqı isə öz dövlətinin və Ali Baş Komandanın yanında hər an döyüşə hazır olan, generalı, polkovnikləri, mayorları səngərdə öz əsgəri ilə döyüşüb qəhrəmancasına şəhid olan bir Azərbaycan var və güclü dövlətimiz, qüdrətli ordumuz bir qarış torpağımızı belə, düşmən tapdağında qoymayacaq!

✍ **Ramiyyə ƏKBƏROVA**

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar iclas keçirilib. Tədbiri nazir Azad Cabbarov açaraq məruzə edib.***

## Payız-qış mövsümünə hazırlıq məsələləri müzakirə olunub



Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə verilən tapşırıqlara əsasən nazirlik tərəfindən idman müəssisələrinin fasiləsiz fəaliyyətinin təmin olunması, elektrik enerjisi və təbii qazdan qənaətlə istifadə edilməsi, israfçılığa yol verilməməsi, istehlak olunan qazın və enerjinin dəyərlərinin vaxtında ödənilməsi daim diqqətdə saxlanılmalıdır. Növbəti mövsümdə də mədəni-kütləvi və idman tədbirlərinin davamlı keçirilməsi təmin olunmalıdır. Bunun üçün strukturuna daxil olan rayon (şəhər) gənclər və idman idarələri və idman müəssisələrinin, idman obyektlərinin, olimpiya idman komplekslərinin, Uşaq-gənclər idman məktəblərinin üzərinə bir sıra mühüm vəzifələr düşür.

Vurğulanıb ki, payız-qış mövsümündə İlham Əliyev adına Olimpiya İdman Kompleksi, Şərur Olimpiya İdman Kompleksi, Naxçıvan Muxtar Respublika Stadionu, Uşaq-Gənclər İdman Məktəbi, Naxçıvan şəhər "Gənclik" və Üzgüçülük mərkəzlərində yeniyetmə və gənclərin idmanla müntəzəm məşğul olması, kütləvi-mədəni və idman tədbirlərinin keçirilməsi üçün istilik, elektrik sistemi və su təchizatına nəzarət gücləndirilməlidir.

Qeyd edilib ki, təsərrüfathesablı idman müəssisələrində əldə olunmuş gəlirlərdən elektrik enerjisi və qaz xidməti haqlarının ödənilməsində istifadə olunmalı, bu istiqamətdə nöqsanların baş verməməsinə ciddi diqqət yetirilməlidir. Payız-qış mövsümünə hazırlığın əsas məsələsi kimi nazirliyin, o cümlədən tabeliyə və struktura daxil olan təşkilatların yerləşdiyi inzibati binaların mühafizəsinə ciddi nəzarət olunmalı, gözətçilər və ocaqçılar müvafiq olaraq təlimatlandırılmalı, bu dövr ərzində əlaqədar təşkilatlarla əməkdaşlıq möhkəmləndirilməli, tədbirlərə aidiyyəti təşkilatların nümayəndələri dəvət edilməlidir. Nazirliyin strukturuna daxil olan rayon (şəhər) gənclər və idman idarələri yeniyetmə və gənclərin payız-qış mövsümündə də idmanla müntəzəm məşğul olmaları, idman yarışlarında iştirak etmələri üçün yaradılmış şəraitdən düzgün istifadə etməlidirlər.

İclasda məruzə ətrafında çıxışlar dinlənilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Əmək yarmarkası keçirilib

Naxçıvan şəhərində keçirilən əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 64 müəssisədən 694 boş iş yeri təqdim edilib. Həmçinin 43 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 15 nəfərin peşə kurslarına, 4 nəfərin özünüməşğulluq proqramına, 6 nəfərin isə haqqıödənilən ictimai işlərə cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Naxçıvan şəhərində keçirilən əmək yarmarkasında sosial könüllülərin də iştirakı təmin edilib. Tədbirdə könüllülər vətəndaşlara boş iş yerləri ilə bağlı zəruri informasiyaların verilməsində məşğulluq orqanları əməkdaşlarına köməklik göstəriblər.

Qeyd edək ki, bu ay keçirilən yarmarkalarda, ümumilikdə, 212 müəssisədən vakansiyaya çıxarılmış iş yerlərinə 223 göndəriş verilib. Bununla yanaşı, 39 nəfər peşə kurslarına, 53 nəfər özünüməşğulluq proqramına, 25 nəfər isə haqqıödənilən ictimai işlərə cəlb edilmək məqsədilə qeydiyyata alınıb.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## I və IV ixtisas qrupları üzrə qəbul imtahanı olub

Dövlət İmtahan Mərkəzi avqustun 21-də I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə növbəti qəbul imtahanları, həmçinin II, III və V ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin və 9 illik təhsil bazasında kolleclərin müsabiqəsində buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan (Azərbaycan və ya rus dili) də keçirib. Respublikanın 19 şəhər və rayonunda təşkil olunan imtahanlara, ümumilikdə, 75 imtahan binası, 1322 imtahan zalı ayrılıb.

İmtahanların idarə olunmasına 75 ümumi imtahan rəhbəri, 227 imtahan rəhbəri, 1719 nəzarətçi-müəllim, 150 buraxılış rejimi əməkdaşı, 70 bina nümayəndəsi cəlb olunub. İmtahanlar saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.



Naxçıvan Muxtar Respublikasında 5 ümumtəhsil məktəb binasında təşkil edilən imtahanlarda 994 abituriyent biliyini sınayıb. İmtahanların keçirilməsi üçün 86 zal, 110 nəzarətçi, 14 imtahan rəhbəri ayrılıb. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

### *Bildiriş*

"Aydın" kiçik müəssisəsinin hüquqi adı dəyişdirilərək "Aydınoğlu-92" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

### *İtmişdir*

Şərur rayonu, Zeyvə kənd sakini İsmayılov Mahmud Əyyub oğlunun adına verilmiş JN-413 inventar nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Düdəngə kənd sakini Məmmədova Elmira Məhəmmədəli qızının adına verilmiş JN-2000-M inventar nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 622**